AZƏRBAYJAN RESPUBLİKASI ADINDAN

Q Ə T N A M Ə

İş № 2(103)-2484/10

20 iyul 2010-cu il Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyası

Hakimlərdən Gündüz Ağababa oğlu Quliyevin sədrliyi, İsmayıl Şamil oğlu Vəliyev və Mehparə Tofiq qızı Əhmədovanın tərkibində, S.X.Bəhrəmzadənin katibliyi ilə

Bakı Apellyasiya Məhkəməsinin binasında Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 15 fevral 2010-cu il tarixli qətnaməsindən Məhərova Leyla Fəxrət qızının apellyasiya şikayətinə açıq məhkəmə ijlasında baxaraq

m ü ə y y ə n e t d i:

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 15 fevral 2010-cu il tarixli qətnaməsi ilə iddiaçı Kərimov İmaməli Əbdülhəmid oğlunun cavabdehlər Məhərov Ruslan Məhər oğluna və Məhərova Leyla Fəxrət qızına qarşı pul tələbinə dair iddiası qismən təmin edilmiş, cavabdehlərdən 9737 ABŞ dollarının alınaraq iddiaçıya ödənilməsi qət edilmiş, Məhərova Leyla Fəxrət qızının Kərimov İmaməli Əbdülhəmid oğluna qarşı 11430 ABŞ dolları pul tələbinə dair qarşılıqlı iddiası təmin edilməmişdir.

Həmin qətnamədən Məhərova Leyla Fəxrət qızı verdiyi apellyasiya şikayətində qətnamənin ləğv edilib iddianın rədd, qarşılıqlı iddianın təmin edilməsini xahiş etmişdir.

Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, məhkəmə sübutlara düzgün qiymət verməmiş və sonda düzgün olmayan nəticəyə gəlmişdir.

Məhkəmə kollegiyasının iclasında Məhərova Leyla Fəxrət qızının nümayəndəsi apellyasiya şikayətini müdafiə edərək təmin edilməsini, İmaməli Kərimov apellyasiya şikayətini əsassız hesab edərək qətnamənin dəyişdirilmədən saxlanılmasını xahiş etdi.

Məhkəmə kollegiyası izahatları dinləyərək, iş materiallarını araşdıraraq hesab edir ki, apellyasiya şikayəti qismən təmin edilməli, Nəsimi Rayon Məhkəməsinin 15 fevral 2010-cu il tarixli qətnaməsi ilkin iddianın təmin edilməsi hissəsində dəyişdirilməli, cavabdehlərdən 1880 ABŞ dollarının manatla məzənnəsi alınaraq Kərimov İmaməli Əbdülhəmid oğluna verilməli, qalan hissədə ilkin iddia təmin edilməməli, qalan hissədə qətnamə dəyişdirilmədən saxlanılmalıdır.

İş materiallarından görünür ki, iddiaçı Kərimov İmaməli Əbdülhəmid oğlu cavabdehlər Məhərov Ruslan Məhər oğlu və Məhərova Leyla Fəxrət qızına qarşı hazırki iddia ərizəsi ilə məhkəməyə müraciət edərək 2008-ci ilin iyulundan 2009-cu ilin avqust ayına kimi onların banklara və şəxslərə olan borclarını ödədiyini, cavabdehlərin həmin pulun bir hissəsini qaytarsalar da 9815 ABŞ dolları borclu qaldıqlarını göstərərək həmin pulun ona qaytarılmasını xahiş etmişdir.

Eyni zamanda İmaməli Kərimov ərizə verərək iddia tələbinin həjmini dəyişərək cavabdehlərdən borca görə 9737 ABŞ dollarının və mənəvi zərərə görə 4000 ABŞ dollarının ona ödənilməsini xahiş etmişdir.

Javabdehlərdən Məhərova Leyla Fəxrət qızı Kərimov İmaməli Əbdülhəmid oğluna qarşı qarşılıqlı iddia ərizəsi verərək İmaməlinin iddia ərizəsinə görə onların əvəzinə jəmi 37500 ABŞ dolları ödədiyini iddia etdiyi halda ona 48840 ABŞ dolları ödəməklə 11340 ABŞ dolları artıq ödədiklərini göstərərək həmin pulun ondan tutularaq ödənilməsini xahiş etmişdir.

Birinci instansiya məhkəməsi tərəfindən mübahisə yuxarıda qeyd olunan qaydada həll edilmişdir.

Aşağıdakılara əsasən birinci instansiya məhkəməsinin ilkin iddia üzrə gəldiyi nəticələrlə razılaşmaq olmaz.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 777-ci maddəsinə əsasən tapşırıq müqaviləsinə görə tapşırığı həyata keçirməyi öhdəsinə götürən şəxs (vəkalət alan) başqa şəxsin (vəkalət verənin) ona tapşırdığı əqdləri, işləri və ya digər xidmətləri konkret nəticə əldə olunmasına təminat vermədən icra etməyi öhdəsinə götürür. Tapşırıq müqaviləsi həm şifahi, həm də yazılı formada bağlana bilər. Müqavilə vəkalət alanın tapşırığı qəbul etməsindən sonra qüvvəyə minir.

Həmin Məcəllənin 784-cü maddəsinə əsasən vəkalət verən tapşırığın icrası gedişində vəkalət alana dəyən zərər üçün, əgər zərərin onun təqsiri üzündən yaranmadığını sübuta yetirməsə, vəkalət alan qarşısında məsuliyyət daşıyır.

İş materiallarından görünür ki, İmaməli Kərimov iddia ərizəsini onunla əsaslandırmışdır ki, cavabdehlərin xaricə getmələri ilə əlaqədar onların tapşırıqları əsasında onların mülkiyyətində olan mənzillərini kirayəyə verib, 2008-ci ilin iyul ayından 2009-cu ilin avqust ayına qədər cavabdehlərin TBC kredit təşkilatına birinci kredit üzrə 4191,55 ABŞ dolları, ikinci kredit üzrə 1572,45 ABŞ dolları Ruslan Məhərovun, Nikoil Banka Leyla Məhərovanın əvəzinə 10791 ABŞ dolları, Respublika Banka 2400 ABŞ dolları R.Məhərovun əvəzinə, Bank of Bakuya 770 manat R.Məhərovun əvəzinə, Standart Banka birinci kredit üzrə 2026,30 manat, ikinci kredit üzrə 2404 manat R.Məhərovun, Unibanka 3204 ABŞ dolları və 20 manat R.Məhərovun əvəzinə, Texnika Bankda Məhərov Ruslanin adına olan GOLD Kartina 9000 ABŞ dolları eyni zamanda onların Əsədov Anara borclu olduqları 3200 ABŞ dollarından 3000 ABŞ dollarını, Qurbanov Rəşada 1030 manat və Novruzəliyev Zaura isə 300 ABŞ dollarını ödəmişdir.

Lakin cavabdehlər onun ödədiyi həmin pulların bir hissəsini qaytarsalar da 9737 ABŞ dolları borclu qaldıqlarına görə həmin pulun və mənəvi təzminat kimi 4000 ABŞ dollarının ona ödənilməsini xahiş etmişdir.

Birinci instansiya məhkəməsi 9737 ABŞ dolları tələbinə dair hissədə ilkin iddia tələbini təmin edərək qətnaməsini onunla əsaslandırmışdır ki, ilkin iddia üzrə iddiaçı İmaməli Kərimov tərəfindən cavabdehlərin həm müxtəlif banklara, həm də fiziki şəxslərə olan borclarından ümumilikdə 34.007 ABŞ dolları və 7577,8 manat məbləğində pul vəsaiti ödənilmişdir.

İş materiallarında olan 09.08.2008-ci il tarixli icarə müqaviləsindən görünür ki, Məhərova Leyla Fəxrət qızı 1 il müddətinə ayda 810 manat olmaqla Süleyman Rəhimov küçəsi, ev 195 ünvanında yerləşən 19 saylı mənzili Vagizov Samir Aydın oğluna icarəyə vermişdir.

İş materiallarında olan 04.12.2008-ci il tarixli kirayə müqaviləsindən görünür ki, İmaməli Kərimov Süleyman Rəhimov ev 195 ünvanında yerləşən 19 saylı mənzili ayda 800 manat müqabilində Abdullayev Rüstəm Rufiz oğluna icarəyə vermiş və bu məbləğdən 260 manat "New Eurore" Agentliyinə xidmət haqqı verilmişdir.

İş materiallarında olan 02.09.2008-ci il tarixli icarə müqaviləsindən görünür ki, Məhərov Ruslan Məhər oğlu mülkiyyətində olan mənzili 6 ay müddətinə ayda 350 manat müqabilində Emre Yılmaza icarəyə vermişdir.

İş materiallarında olan 03 avqust İ.Kərimov tərəfindən yazılmış iltizamdan görünür ki, sonuncu Nadirova Kəmalə Nizami qızından 7800 ABŞ dolları məbləğində pul almışdır.

Məhkəmə iclasında ilkin iddia üzrə iddiaçı İ.Kərimov öz izahatında və məhkəməyə ünvanladığı iddia ərizəsində qeyd etmişdir ki, Leyla Məhərova ABŞ-dan qayıtdıqdan sonra ona 6000 ABŞ dolları məbləğində pul vermişdir. Bu hal qarşılıqlı iddia ərizəsində də öz əksini tapmışdır.

Lakin qarşılıqlı iddia ərizəsində Ruslan Məhərovun Amerikaya yola düşməsindən əvvəl İmaməli Kərimova 5480 ABŞ dolları, Leyla Məhərovanın isə 610 ABŞ dolları verdiyi, bundan başqa İmaməli Kərimovun cavabdeh Ruslan Məhərovun iş yeri olan ABŞ-ın Azərbaycandakı səfirliyindən 10950 ABŞ dolları məbləğində pul vəsaiti alması qeyd edilsə də, bu halları təsdiq edən heç bir sübut məhkəməyə təqdim edilməmişdir.

Birinci instansiya məhkəməsinin də istinad etdiyi Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 14.2-ci maddəsinə əsasən məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

Həmin Məcəllənin 77.1-ci maddəsinə əsasən hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

Əvvəla iddia ərizəsindən görünür ki, iddiaçının cavabdehlərin əvəzinə banklara ödədiyini iddia etdiyi məbləğin cəmi 31158 ABŞ dolları və 5220 manat təşkil edir.

Eyni zamanda iddiaçı cavabdehlərin borclarına görə digər şəxslərə ödədiyini iddia etdiyi məbləğin cəmi 3300 ABŞ dolları və 1030 manat təşkil edir.

Lakin İmaməli Kərimovun məhkəmə kollegiyasının iclasında da təsdiq etdiyi işin müəyyən edilmiş hallarından görünür ki, digər şəxslərdən Rəşad Qurbanova ödədiyini istinad etdiyi 1030 manat pul axırıncının cavabdehlərin Standart Banka olan kredit borcundan ödədiyi məbləğə görə ona ödənilmişdir. Cavabdehlərin Standart Banka olan borclarına görə ödənilmiş bütün məbləğ isə iki kredit üzrə cəmi 2026 və 2404 manat təşkil etməklə bütövlükdə iddia tələbinə daxil edilmişdir. Buna görə də həmin 1030 manat ödənilmiş məbləğ təkrar tələb edildiyinə görə ümumi tələb edilən məbləğdən çıxarılmalıdır.

Deməli, İmaməli Kərimovun cavabdehlərin borclarına görə ödədiyini iddia etdiyi məbləğ cəmi (31158+3300) 34458 ABŞ dolları və 5220 manat təşkil edir.

Eyni zamanda İmaməli Kərimov məhkəmə kollegiyasının iclasında təsdiq etmişdir ki, bunun müqabilində cavabdehlər Amerikaya gedərkən ona 5482 ABŞ dolları vermiş, etibarnamə əsasında cavabdehlərdən Ruslanın işlədiyi yerdən 10953

ABŞ dolları son haq-hesab pulunu almış, mənzilləri satıldıqdan sonra ona Kəmalə adlı şəxs vasitəsi ilə 7800 ABŞ dolları və cavabdehlərdən Leyla ona 6000 ABŞ dolları pul verilmişdir.

Bununla bərabər İmaməli Kərimov cavabdehlərin mənzillərinin kirayə verilməsindən "makler" xərcləri çıxılmaqla bir mənzildən 5130 manat, digər mənzildən 1965 manat, cəmi 7095 manat əldə etdiyini təsdiq etmişdir.

Deməli, İmaməli Kərimovun cavabdehlərdən aldığı məbləğ cəmi (5482+10953+7800+6000) 30235 ABŞ dolları və 7095 manat təşkil edir.

Bu halda İmaməli Kərimovun javabdehlərin borjlarına görə ödədiyi ABŞ dollarının məbləği 34458, onlardan aldığı ABŞ dollarının məbləği 30235 təşkil etdiyi üçün ödənilməyən fərq 4224 ABŞ dolları təşkil edir. Digər tərəfdən İmaməli Kərimovun javabdehlərin borjlarına görə ödədiyi Azərbayjan manatının məbləği 5220 manat, onlardan aldığı Azərbayjan manatının məbləği isə 7095 manat təşkil etdiyi üçün ona artıq ödənilən məbləğ 1875 manat təşkil edir. 1875 manatın 2344 ABŞ dolları təşkil etdiyini nəzərə alaraq iddiaçıya ödənilməyən 4224 ABŞ dollarından həmin məbləğ çıxıldıqda 1880 ABŞ dolları alınır.

Beləliklə, İmaməli Kərimova cavabdehlərin borclarına görə ödənilməyən hissə cəmi 1880 ABŞ dolları təşkil edir.

Lakin birinci instansiya məhkəməsi işin qeyd olunan hallarını nəzərə almadan qanunvericiliyin tələblərini pozaraq iddiaçıya ödənilməyən hissənin 9737 ABŞ dolları təşkil etdiyi nəticəsinə gələrək həmin pulun cavabdehlərdən tutularaq iddiaçıya ödənilməsini qət etmişdir.

Qətnamənin ilkin iddianın 4000 manat mənəvi təzminat tələbinin rədd edilməsi hissəsinə gəldikdə isə həmin hissədə məhkəmə qətnaməsi apellyasiya qaydasında mübahisələndirilməmişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 372.6-cı maddəsinə əsasən apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin qətnaməsinin əsaslılığını onun düzünə və ya dolayısı ilə mübahisələndirilən hissəsində, şikayət qərarın ləğv edilməsinə yönəldikdə və ya apellyasiya şikayətində və ona etirazlarda ifadə olunmuş dəlillərə əsasən mübahisənin predmeti bölünməz olduqda isə tam yoxlayır.

Qətnamənin qarşılıqlı iddia tələbinin rədd edilməsi hissəsinə gəldikdə isə qarşılıqlı iddiaçı Amerikaya gedərkən İmaməli Kərimova 6090 ABŞ dolları verdiklərini göstərsə də Kərimov bu məbləğin 5482 ABŞ dolları olduğunu təsdiq etmişdir.

Eyni zamanda qarşılıqlı iddiaçı Bakı şəhəri, S.Rəhimov küçəsi, ev 19, mənzil 195-də yerləşən mənzilin kirayə verilməsindən İmaməli Kərimovun 10200 manat əldə etdiyini göstərsə də Kərimov bu məbləğin yalnız 5130 manat olduğunu təsdiq etmişdir.

Bununla bərabər qarşılıqlı iddiaçı Bakı şəhəri, Saraykin küçəsi, ev 57, mənzil 43-də yerləşən mənzilin kirayə verilməsindən ilkin iddiaçının 4200 manat əldə etdiyini iddia etsə də İmaməli Kərimov bu məbləğin yalnız 1965 manat olduğunu təsiq etmişdir.

Bu halda birinci instansiya məhkəməsi Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 77.1-ci maddəsinin tələblərinə uyğun olaraq qarşılıqlı iddianın təmin edilməməsi hissəsində düzgün nəticəyə gəlmiş və apellyasiya şikayətinin dəlilləri həmin hissədə məhkəmə qətnaməsinin ləğvi üçün əsas hesab edilə bilməz.

Beləliklə məhkəmə kollegiyası hesab edir ki, apellyasiya şikayəti qismən təmin edilməli, ilkin iddianın təmin edilməsi hissəsində birinji instansiya məhkəməsinin qətnaməsi dəyişdirilməli, javabdehlərdən 1880 ABŞ dollarının manatla məzənnəsi alınaraq iddiaçıya ödənilməli, qalan hissədə qətnamə dəyişdirilmədən saxlanılmaldır.

Şərh edilənlərə əsasən və Azərbayjan Respublikası Mülki Prosessual Məcəlləsinin 382, 384, 392, 393-jü maddələrini rəhbər tutaraq məhkəmə kollegiyası

q ə t e t d i:

Apellyasiya şikayəti qismən təmin edilsin.

Həmin iş üzrə Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 15 fevral 2010-cu il tarixli qətnaməsi ilkin iddianın təmin edilməsi hissəsində dəyişdirilsin.

Məhərov Ruslan Məhər oğludan və Məhərova Leyla Fəxrət qızından 1880 ABŞ dollarının manatla məzənnəsi alınaraq Kərimov İmaməli Əbdülhəmid oğluna verilsin.

Qalan hissədə ilkin iddia təmin edilməsin.

Qalan hissədə qətnamə dəyişdirilmədən saxlanılsın.

Qətnamədən 2 ay müddətində Azərbayjan Respublikası Ali Məhkəməsinin mülki işlər üzrə məhkəmə kollegiyasına Bakı Apellyasiya Məhkəməsi vasitəsi ilə kassasiya şikayəti verilə bilər.